**UOT 94(479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.2.51

# BİRİNCİ RUSİYA-İRAN MÜHARİBƏSİNDƏ 1804-1808-Cİ İLLƏR HƏRBİ ƏMƏLİYYATLARI VƏ NAXÇIVAN

# MILITARY OPERATIONS OF 1804-1808 IN THE FIRST RUSSIAN-IRANIAN WAR AND NAKHCHIVAN

**İlhami ƏLİYEV***

**XÜLASƏ**

Məqalədə Birinci Rusiya-İran müharibəsi zamanı, 1804-1808-ci illərdə Rusiya İmperiyasının Cənubi Qafqazda, xüsusilə İrəvan və Naxçıvan xanlıqları istiqamətində həyata keçirdiyi hərbi-siyasi ekspansiya təhlil edilmişdir. Rusiya komandanlığının bəzi Azərbaycan xanlıqlarını (Qarabağ, Şəki, Şirvan və s.) diplomatik və legitim olmayan yollarla tabe etməsi prosesi ilə yanaşı, İrəvan və Naxçıvanın işğalı üçün təşkil edilən iki böyük hərbi kompaniyanın gedişatından bəhs edilmişdir. Mənbələrə əsasən, P.D.Sisianov və İ.V.Qudoviçin rəhbərlik etdiyi bu yürüşlər ərzaq təchizatı problemləri, Qacar ordusunun güclü müqaviməti və yerli hakimlərin, xüsusilə I Kəlbəli xanın yürütdüyü ehtiyatlı diplomatik manevrlər nəticəsində taktiki uğursuzluqla və rus qoşunlarının geri çəkilməsi ilə nəticələnmişdir. Yekun olaraq I Rusiya-Qacar müharibəsi zamanı 1808-ci ilə qədər İrəvan və Naxçıvan bölgələrinin tam ilhaqı mümkün olmasa da, Rusiya İmperiyası yerli hərbi tərəfdaşlar qazanmaqla gələcək işğallar üçün zəmin hazırlaya bilmişdir.

**Açar sözlər:** *Naxçıvan, Rusiya, xanlıq, imperiya, hücum, hərbi əməliyyat, qoşunlar.*

**ABSTRACT**

The article analyzes the military-political expansion carried out by the Russian Empire in the South Caucasus during 1804-1808, particularly in the direction of the Erivan and Nakhchivan khanates, during the First Russian-Iranian War. Alongside the process by which the Russian command subordinated certain Azerbaijani khanates (Karabakh, Sheki, Shirvan, etc.) through diplomatic and illegitimate means, the study examines the course of two major military campaigns launched to occupy the Erivan and Nakhchivan khanates. Based on sources, these campaigns, led by P.D.Sisianov and I.V.Gudovich, resulted in tactical failure and the withdrawal of Russian forces due to problems of logistical supply, strong resistance from the Qajar army, and the cautious diplomatic maneuvers pursued by local rulers, especially Kalbali Khan I. In conclusion, although the complete annexation of these regions was not achieved by 1808 during the First Russian-Qajar War, the Russian Empire was able to lay the groundwork for future occupations by securing the support of local military allies.

**Keywords:** *Nakhchivan, Russia, khanate, empire, attack, military operations, troops.*

## GİRİŞ

1801-ci ilin martında I Pavelin sui-qəsd nəticəsində öldürülməsindən sonra taxta çıxan oğlu I Aleksandr həmin il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında yeni manifest elan etdi. Bu sənədə görə gürcü çarlığının yerində buradakı rus qoşunlarının baş komandanı və bir mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Bu zaman Kartli-Kaxetiya çarlığının tabeliyində olan Azərbaycan sultanlıqları Borçalı, Qazax, Şəmşəddil ilə yanaşı, Şörəyel və Pəmbək də bu quberniyanın tərkibində qanunsuz olaraq Rusiyanın tabeliyinə keçirildi

*AMEA Naxçıvan Bölməsi, e-mail: ilhamialiyev@yahoo.com.tr
ORCID: 0000-0002-7079-4737

[Дубровин, 1866 a, s. 19; Qarayev, 2016, s. 136]. Bu müqavilədən sonra Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi başa çatdı.

Gürcü torpaqlarının müəyyən hissəsini tabe etdikdən sonra Rusiyanın qarşıdakı planı Azərbaycan xanlıqlarının ələ keçirilməsi idi. Buna görə də imperator I Aleksandr növbəti hədəfi olan Azərbaycan torpaqlarının işğalı üçün rus qoşunlarının komandanı K.F.Knorrinqə göndərdiyi 11 bəndlik xüsusi təlimatın 10-cu bəndində göstərirdi ki, qonşuluqda yaşayan xalqlarla sıx əlaqələr quraraq imperator hakimiyyətini istəyənləri sayını artırmaq, xüsusilə də, üzərlərində Fətəli şahın hakimiyyəti təsdiq edilməmiş, özlərinin təhlükəsizliyi baxımından Rusiyaya yaxınlaşmağa meylli olan Azərbaycan xanlıqlarını öz tərəfimizə çəkmək çox zəruridir [Присоединение..., 1972: 65].

Bundan sonra K.F.Knorrinq və adamları İrəvan, Naxçıvan və s. xanlıqları Rusiyanın tabeliyinə keçirmək üçün əməli fəaliyyətlərini genişləndirməyə başladılar. Amma bu bir nəticə vermədi. Həmin vaxt İrəvan xanı Məhəmməd xan və Naxçıvan xanı I Kəlbəli xan müsəlman əhalinin xristian hakimiyyəti altında olmasının mümkünsüz olduğunu bildirdilər [Süleymanov, 2014 a: 463]. Xanların belə bir mövqeyi o zaman üçün təbii ki, reallıq idi. Çünki hər iki bölgə o vaxta qədər xristian bir dövlətin idarəçiliyində olmamışdı.

Bu zaman Rusiyanın strateji hədəf olaraq İrəvanı seçməsinin əsas səbəblərindən biri onun gürcü çarlığının sərhədində olması idi. Bu hərbi işi daha asan və ardıcıl yerinə yetirmək baxımından çox əlverişli idi. Bununla Rusiya Azərbaycan torpaqlanın işğalına onun şimal-qərb sərhədlərindən başlamaq istəyirdi. Cənuba doğru ondan sonrakı xanlıq isə Naxçıvan xanlığı idi. İrəvan xanlığını tutduqdan sonra qacarların nəzarətində olan Naxçıvan xanlığını ələ keçirmək Rusiya üçün daha asan ola bilərdi.

Lakin bu istiqamətdə rus qoşunlarının Azərbaycan xanlıqlarını ələ keçirmək planı baş tutmadıqda, Rusiya komandanlığı şimaldan hərəkətə keçdi. Əvvəlcə 1803-cü ilin martında Car-Balakəni, ardınca 1804-cü ilin yanvarında onun cənubunda yerləşən Gəncə xanlığını işğal etdi. 1804-cü ilin iyununda rus qoşunlarının İrəvan xanlığı üzərinə hücumu, eyni zamanda Qacar hərbi qüvvələrinin bu istiqamətdə irəliləməsi I Rusiya-Qacar müharibəsinin başlanmasına səbəb oldu.

Hadisələr belə cərəyan etdi ki, İrəvana hücum etmək məqsədilə rus hərbi qüvvələrinin Tiflisdə toplaşdığı və İrəvan xanı ilə danışıqlar aparıldığı vaxt Fətəli şahın sədr əzəmi Mirzə Məhəmməd Şəfi Yaqub bəyi məktubla rus qoşunlarının baş komandanı P.D.Sisianovun yanına göndərdi. 23 may 1804-cü il tarixli bu məktubda baş vəzir rus qoşunlarının Tiflisə gəlişinin məqsədini soruşur və Kartli-Kaxetiyanın Qacarlar dövlətinin ərazisi olduğunu P.D.Sisianovun diqqətinə çatdırır, ondan rus qoşunlarını həmin ərazidən çıxarmasını tələb edirdi. Əks halda onların hərbi yolla oradan çıxarılacağını bildirirdi [АКАК, 1868: 807-808]. Lakin P.D.Sisianov elçini nalayiq şəkildə qarşılayaraq, bu tələblərə hörmətsizlik göstərdi və qarşı tərəfin fikirlərinə rədd cavabı verdi. O, 27 may tarixli cavab məktubu ilə qarşı tərəfə təhqiredici fikirlərini bildirdi və meydan oxudu [АКАК, 1868: 808-809; Qarayev, 2016: 150-151]. P.D.Sisianovun bu davranışı və təhqiramiz məzmunlu məktubu 1804-cü il iyunun 10-da Qacarlar dövləti ilə Rusiya arasında diplomatik əlaqələrin dayandırılmasına və iki dövlət arasında 1804-813-cü illər müharibəsinin başlanmasına gətirib çıxardı.

Rus qoşunlarının İrəvan xanlığı üzərinə birinci hücumu 1804-cü ilin iyununda başladı və iyun-avqust aylarında davam etdi. Bu hücum əməliyyatında xanlığın müəyyən ərazilərini ələ keçirdikdən sonra rus hərbi qüvvələri İrəvan qalasının işğalı uğrunda mübarizədə bir nəticə əldə edə bilmədilər. Həm Naxçıvan xanı Kəlbəli xanın daxildən birləşmiş qüvvələrlə köməyi, həm də Qacar qoşunlarının rus hərbi dəstələrinə qarşı döyüşməsi P.D.Sisianovun işini çətinləşdirmiş oldu. Digər tərəfdən ərzaq və hərbi sursat təchizatının zəif olması və Qacar hərbi dəstələrinin azsaylı rus hərbçilərinin olduğu Gəncə qalası üzərinə getmək istəyi rus qoşunlarını sentyabrın 4-də geriyə – Tiflisə çəkilməyə məcbur etdi [Присоединение..., 1972: 281-282]. Rus hərbi qüvvələrinə çox baha başa gələn bu hərbi əməliyyatlar zamanı onlardan 2000-ə yaxın hərbçi öldürüldü və ya əsir götürüldü [АКАК, 1868: 816]. Bu P.D.Sisianovun rus qoşunları adından Qacarlar dövlətinə meydan oxumasına çox kəsərli bir cavab oldu.

İrəvan üzərinə birinci hücumun nəticələrinə görə Naxçıvan və İrəvan xanlıqları Qacar qoşunlarının nəzarəti altında qaldılar. Bu zaman İrəvan xanlığının Şörəyel bölgəsi baxmayaraq ki, qanunsuz olaraq 1801-ci ildə Tiflis quberniyasının tərkibinə verilmişdi, amma oranın idarəçiliyi hələ də İrəvan xanlığına bağlı idi. Lakin, tezliklə P.D.Sisianov daxili çəkişmələr səbəbilə ona müraciət edən şörəyellilərin tələbini yerinə yetirərək 1805-ci il martın 30-da Şörəyelin mərkəzi Gümrünü tutaraq, buranı da Rusiyaya tabe etdi [AKAK, 1868: 573; Qarayev, 2016: 168].

P.D.Sisianovun geriyə Tiflisə çəkilməsindən sonra şah hakimiyyətinin razılığı ilə Naxçıvan xanlığının idarəçiliyi yenə də Kəlbəli xan tərəfindən həyata keçirilsə də, xan yenə də rus qoşunlarının komandanına məktub göndərərək onunla münasibətləri davam etdirmək istədiyini bildirdi. Bu zaman xan P.D.Sisianova göndərdiyi məktubunda Naxçıvan xanlığını onlara təslim edəcəyinə söz vermədiyini, onlara xidmət etməyə hazır olduğunu vəd etdiyini bildirirdi. Birbaşa cavab verməк istəməyən P.D.Sisianov Cəfərqulu xan Xoyluya yazmışdı ki, əgər onun Kəlbəli xanla və ya İrəvan xanı ilə işi olarsa, ya da onlar Cəfərqulu xanın vasitəsilə bu işə təşəbbüs edərlərsə, yalnız oğullarını girov qoyduqdan sonra bu işə başlamağa razı olar [AKAK, 1868: 860]. Bununla rus komandan Kəlbəli xanla münasibətləri davam etdirmək istəmədiyini bildirirdi. Lakin diqqətçəkən əsas məqam bundan ibarət idi ki, bütün olanlardan sonra Naxçıvan xanı ruslarla əlaqəni kəsmək və onlarla arasında düşmənçilik hallarının olmasını istəmirdi.

Kəlbəli xandan sonra P.D.Sisianov 1805-ci ilin yazına planlaşdırdığı yeni hücumu zamanı dəstək almaq ümidi ilə Abbasqulu xanla əlaqə qurdu. Həmin ilin yazı və yayı ərzində rus baş komandanı ilə Abbasqulu xan arasında gizli əlaqələr davam etdirildi [Нагдалиев, 2006, s. 36].

P.D.Sisianovun İrəvan xanlığını işğalı zamanı məğlub olmasından sonra Fətəli şah rus qoşunlarını Cənubi Qafqazdan çıxarmağı və burada möhkəmlənməyi qarşısına məqsəd qoyduğu üçün tezliklə Şimalı Azərbaycan xanlarını tabe etməyi qərara aldı. İlk hücumunu isə son vaxtlar P.D.Sisianovla müntəzəm danışıqlar aparan Qarabağ xanlığına təşkil etdi. Şahın 1805-ci ilin yanvarında İbrahim xanın onun yanında girovluqda olan oğlu Əbülfət ağanın başçılığı altında Qarabağ xanlığı üzərinə göndərdiyi 5 min nəfərlik qoşunu ağır məğlubiyyətə uğradı və geriyə qayıtdı. İbrahim xan bu qələbədən sonra Qacar qoşunlarının yeni daha təhlükəli hücumunun olmasından ehtiyat etdiyindən Rusiyanın himayəsini qəbul etmək üçün P.D.Sisianovla danışıqları gücləndirdi [Süleymanov, 2014 b: 48-49]. Bu zaman Qacar hərbi qüvvələrinin hücumu onun bu istəyini həyata keçirməyə bir vasitə oldu və onu tezləşdirdi.

P.D.Sisianov isə Gəncənin işğalından sonra Qarabağ xanlığı ilə başladığı diplomatik yazışma və danışıqları davam etdirirdi. O, Qarabağ xanına yazdığı məktubunda Rusiyanın himayəsini qəbul etdikdən sonra xanlıqda sabitliyin yaranacağına və xanın irsi hakimiyyətinin davam edəcəyinə yüksək şəkildə təminat verəcəyini bildirirdi [AKAK, 1868: 699-700; Дубровин, 1866 b: 422]. Xanlığın yerli bəyləri Rusiya hakimiyyətini qəbul etmək istəməsələr də, İbrahim xan artıq 1805-ci ilin fevralın 21-də mayor D.Lisaneviçə öz razılığını açıqladı [Süleymanov, 2014 b: 51].

1805-ci ilin yanvarında Qacar qoşunları məğlub edildikdən sonra Fətəli şah İbrahim xanı Rusiya himayəsini qəbul etməkdən çəkindirmək üçün öz adamlarını onun yanına göndərib Qarabağ xanlığını bütünlüklə ona verəcəyini bildirdi. Əvəzində şah xandan girov kimi övladlarından ikisini onun yanına göndərməyi, Gəncə və Tiflis yolu üzərindəki Əsgəranın hər iki qalasını Qacar qoşunlarına təhvil verməyi tələb edirdi. Məqsədi Şuşa qalasının Rusiyanın əlinə keçməsinə imkan verməmək idi [Qarabağnamələr, 2020: 117-118; Hüseynov, 2012: 175-176]. Lakin bütün bunlar heç bir nəticə vermədi. 1805-ci il mayın 14-də Gəncə şəhəri yaxınlığında Kürəkçay vadisində İbrahim xanla P.D.Sisianov arasında müqavilə imzalandı.

11 artikuldan ibarət olan Kürəkçay sazişinin preambulasında İbrahim xanın Rusiya dövlətinin təbəəliyinə keçməsi təsbit edilmiş, onun 1, 4, 6, 8 və 9-cu artikullarında Qarabağ xanın, 2, 3, 5 və 7-ci maddələrində Rusiya imperiyasının öhdəlikləri göstərilmişdir. 10-cu maddə müqavilənin müddətsiz bağlanması, 11-ci maddə isə müqavilənin ratifikasiya haqqında idi [Mahmudov & Şükürov, 2009: 367].

Bu müqaviləyə görə İbrahim xan yalnız Rusiya dövlətinin ali hakimiyyətini qəbul edir və qonşu dövlətlərlə xarici əlaqələr qurmaq hüququ əlindən alınırdı. Həmçinin, Qarabağ xanı Şuşa qalasında 500 nəfərlik Rusiya hərbi qüvvələrini yerləşdirməli, hər il Rusiya dövlətinə 8 min çervon bac verməli, nəvəsini həmişəlik girov olaraq Tiflisdə saxlamağı öhdəsinə götürməli idi. Əvəzində, Rusiya xanlığın və onun bütün varislərinin hakimiyyətini qoruyacağına və ərazisinin toxunulmazlığına təminat verirdi.

Kürəkçay sazişinin imzalanmasında iştirak edən Qarabağ xanının qohumu Şəki xanı Səlim xan da bir həftə sonra Rusiya ilə belə bir müqavilə imzaladı. 1805-ci il mayın 21-də Şəki xanı ilə P.D.Sisianov arasında imzalanmış müqavilə də, əsasən, İbrahimxəlil xanla mayın 14-də bağlanmış müqavilənin eynisi idi. Yeganə fərq isə ondan ibarət idi ki, Qarabağ xanlığı hər il 8 min çervon, Şəki xanlığı isə 7 min çervon xərac ödəməli idi [АКАК, 1868: 646-647; Hüseynov, 2012: 183].

I Rusiya-Qacar müharibəsinin başlanmasından bir ilə qədər vaxt keçdikdən sonra Azərbaycan xanlıqlarından ilk olaraq Qarabağ xanlığı, ardınca Şəki xanlığı Rusiya tərəfindən ilhaq edildi. Azərbaycan xanlıqlarının Rusiyanın hakimiyyətini seçməsi Rusiya və Qacarlar dövlətinin onlara qarşı münasibətlərindən yaranmış oldu.

Qarabağ və Şəki xanlıqlarının Rusiya dövlətinin tərkibinə daxil edilməsini heç cür qəbul etməyən Fətəli şah İngiltərə və Fransa dövlətlərinin nümayəndələri ilə diplomatik danışıqlarda konkret bir nəticə əldə etmədiyindən rus qoşunlarının Azərbaycan torpaqlarında möhkəmlənməsini dayandırmaq üçün Abbas Mirzənin başçılığı altında qoşunların Qarabağ üzərinə hücum əmrini verdi. İyun ayının ortalarında Qacar qoşunlarının Qarabağa hücumu, Şuşanı mühasirəyə alması, sonra Gəncə üzərinə yürüş etməsi, yerli müsəlman əhalinin onları dəstəkləməsi və s. bunlara baxmayaraq yenə də qacarlar məğlub olaraq geriyə qayıtdılar [Umudlu, 2004: 58-60].

1805-ci ilin dekabrında bir neçə batalyon hərbi qüvvə ilə Şirvana yaxınlaşan P.D.Sisianov döyüşə başlamazdan əvvəl Şirvan xanına tabe olmaq üçün 48 saat vaxt verdi. Mustafa xan danışıqları uzatmağın yersiz olduğunu görüb razılığa gəldi. 1805-ci il dekabr ayının 27-də Şirvan xanı Rusiyanın təbəəliyini qəbul etmək haqqında müqaviləni imzaladı [АКАК, 1868: 673-674]. Şimali Azərbaycan xanlıqlarının ən böyük və zəngini olan Şirvan xanlığının ələ keçirilməsi Rusiya üçün mühüm siyasi, iqtisadi və hərbi-strateji əhəmiyyəti var idi.

Yuxarıda qeyd edildiyi kimi, 1805-ci il iyunun ortalarında Qarabağda rus qoşunlarının hərbi əməliyyatları uğurla davam etdirdiyi vaxt bu P.D.Sisianovu İrəvan və Naxçıvan istiqamətində daha da irəliləməyə ümidləndirdi. O, Abbasqulu xanın adamları vasitəsilə Naxçıvanın hörmətli ağsaqqallarına, bəylərinə, din adamlarına və s. məktubla müraciət etdi. 14 avqust 1805-ci il tarixli məktubunda onlara Qacarlar dövlətinin etibarsızlığından, xəyanətkarlığından yerli əhalini soyub-talamasından bəhs etmiş, Rusiyaya tabe olmağın üstünlüklərini izah etməyə çalışmış, göstərmişdir ki, əgər əhali xoşbəxtliyini və sakitliyini təmin etmək istəyirsə bu üstünlükdən yararlanmalıdır. Bunun üçün əhali onların xeyrinə çalışan Abbasqulu xanla birləşməli, onun hakimiyyəti altında Rusiya dövlətinin simasında özünə himayədar tapmalıdır [АКАК, 1868: 636; Алиев & Алиев, 2011: 118-120]. Bu müraciəti ilə P.D.Sisianov gələcəkdə rus qoşunlarının bölgəni rahat şəkildə işğal etməsi üçün əlverişli mühit yaratmaq istəyirdi.

Həmin vaxt P.D.Sisianovun Naxçıvana hücumunu ərzaq ehtiyatının az olması ucbatından təxirə saldığını eşidən Abbasqulu xan ona yazdığı məktubunda göstərirdi ki, rus qoşunlarını Naxçıvanda ərzaqla təchiz etməyə hazırdır. Olduğu Sisian qalasından Naxçıvan üzərinə getmək üçün ona hərbi dəstək və xanlıq taxtına sahib olmaq üçün rəsmi fərman verilməsini xahiş edirdi [АКАК, 1868: 635]. Cavab məktubunda rus komandan Abbasqulu xandan xanlıq taxtını əldə etmək üçün Rusiya dövlətinə itaətinin göstəricisi kimi oğlunu girov qoymağı və xərac ödəməyi tələb edirdi [Нагдалиев, 2006: 36].

Lakin P.D.Sisianov Naxçıvanın işğalını 1805-ci ildə deyil, növbəti ildə rus qoşunlarının Cənubi Qafqaza gəlişindən sonra etməyi nəzərdə tutmuşdu [Алиев & Алиев, 2011: 117]. Ancaq 1806-cı il yanvarın axırında rus qoşunlarının Bakı qalasını mühasirəyə almasından sonra fevralın 8-də Bakı

qalası yaxınlığında Hüseynqulu xanla görüş zamanı rus komandanın İbrahim bəy tərəfindən güllələnməsi [Дубровин, 1866 a: 478-479] onun bu işini həyat keçirməsinə imkan vermədi.

Bu hadisələrdən sonra, 1806-cı il iyunun 2-də Kəlbəli xan Cəfərqulu xan Xoylunun vasitəsilə Rusiyanın P.D.Sisianovun yerinə təyin etdiyi yeni baş komandan qraf İ.V.Qudoviçlə [Umudlu, 2004, s. 68] məktubla əlaqə yaratmağa nail oldu. Bu zaman Cəfərqulu xan Tiflisə yazırdı ki, Kəlbəli xandan əmin olsunlar. O, gələcəkdə nə şahın, nə də şahzadənin tərəfinə keçməyəcəkdir [АКАК, 1869: 429]. Lakin bu zaman Naxçıvan xanı Qacarlar dövləti ilə də münasibətlərini davam etdirirdi. Həmin vaxt o, oğlu Nəzərəli xanın başçılığı ilə Abbas Mirzənin yanına göndərilmək üçün 500 nəfərlik Kəngərli süvarisinin toplanması haqqında əmr vermişdi [Мапр, 1936: 30-34]. Ancaq Qacar hərbi qüvvələrinin Şimali Azərbaycan xanlıqları ərazisinə hücum hazırlıqları Kəlbəli xanı narahat edirdi. Onların Naxçıvana gəlişlərini xanlığın hüquqlarına təcavüz kimi qəbul edir və buna görə də Rusiya hakimiyyətinə öz xidmətlərini daha israrla təklif etməyə vadar olurdu.

Qeyd edək ki, 1806-cı ilin yazında Cənubi Qafqazdakı qarışıq vəziyyətdən istifadə edən Qacar qoşunları rus hərbi qüvvələrini Azərbaycan torpaqlarından çıxarmaq məqsədilə iki tərəfdən Şuşa və Ağsu istiqamətində hücum etdilər [Umudlu, 2004: 67]. 1806-cı il iyunun 14-də gecə ikən mayor D.Lisaneviç mayor Corayev və digər əsgərləri ilə birlikdə Şuşa qalası yaxınlığında Qaraqaya adlı yerdə İbrahim xanı oradakı ailəsilə birlikdə qətlə yetirməsi [Umudlu, 2004: 69; Süleymanov, 2014 b: 96] Qarabağ, Şəki, Quba və digər xanlıqlarda ruslara qarşı vəziyyət daha da gərginləşdirdi. Bu məsələdə Qarabağ xanının Qacarlarla münasibət qurması əsas kimi göstərilsə də, əslində bu fevralda P.D.Sisianovun öldürülməsinə cavab olaraq Rusiya tərəfinin güc nümayiş etdirməsi idi. Bu tarixi hadisə yerli xanlıqlar tərəfindən Rusiya qarşı müqaviməti gücləndirsə də, elə də güclü təsir etmədi. 1806-cı il iyunun 21-də Dərbənd rus qoşunları tərəfindən tutuldu.

İyulun ortalarında Abbas Mirzənin rəhbərliyi ilə Qacar qoşunları Şuşa yaxınlığında general-mayor Pyotr Fyodroviç Nebolsinin başçılıq etdiyi rus hərbi qüvvələri və Mehdiqulu xanın birləşmiş dəstəsi ilə döyüşdə məğlub olaraq Arazdan cənuba doğru çəkildilər. Qacarların məğlubiyyət xəbərini eşidən Əbülfət xan isə Naxçıvana doğru geri çəkildi [Umudlu, 2004, s. 72].

1806-cı il oktyabrın 3-də heç bir müqavimətsiz Bakı qalası general S.A.Bulqakovun rəhbərliyi ilə rus qoşunları tərəfindən tutuldu [Süleymanov, 2014 b, s. 207]. Bakı xanlığı ləğv edilərək Rusiyanın bir əyalətinə çevrildi. Onun idarə olunması general-mayor P.D.Quryevə tapşırıldı [Umudlu, 2004: 76]. Artıq Şimali Azərbaycanın strateji əhəmiyyətli bir sıra bölgələri çar Rusiyasının nəzarətinə keçmiş oldu.

Oktyabrın 10-da general-leytenant baron Rozen İ.B.Qudoviçə göndərdiyi raportunda bildirirdi ki, Dərbənd və Qubada olduğu kimi, Kəlbəli xan da xanlığının əhalisi ilə birlikdə rus qoşunlarının İrəvana gəlişini gözləyir ki, çarın himayəsinə keçsin. Bu zaman Naxçıvan xanı öz hərbi qüvvələri ilə Əhməd xanın başçılığı altında İrəvan qalasına doğru hərəkət edən Qacar qoşunlarına qarşı çıxdı. Kəlbəli xanın bu addımı Fətəli şahı qəzəbləndirdi və tezliklə onun Tehrana gəlməsini əmr etdi [Алиев & Алиев, 2011: 121-122].

Noyabrın 11-də general S.A.Bulqakovun rəhbərliyi ilə rus qoşunları müdafiəsiz qalmış Quba şəhərini tutaraq Quba xanlığını da işğal etdilər [Mustafazadə, 2005: 215-216]. Bu zaman müqavimət göstərməkdən çəkinən Şeyxəli xan öz dəstəsi ilə dağlara çəkilmişdi.

Kəlbəli xanın Fətəli şahın əmrinə tabe olmaması vəziyyəti daha da gərginləşdirdi. Bu haqda general-mayor İ.V.Portnyagin noyabrın 14-də İ.B.Qudoviçə yazmışdı ki, Kəlbəli xan Fətəli şahın Tehrana gəlmək üçün üç dəfə etdiyi dəvətini rədd edərək şahı daha da qəzəbləndirdi və onu silaha əl atmağa vadar etdi [Алиев, 1986: 20].

1806-cı ilin sonlarında Şimali Azərbaycan xanlıqlarında ruslara qarşı baş verən üsyanları yatırdıqdan sonra artıq onların çoxunun Rusiya tərəfindən işğalı və onun Cənubi Qafqazdakı işğalları Osmanlı dövlətini çox narahat edirdi. Üstəlik Fransanın Osmanlı hakimiyyətini Rusiya ilə müharibəyə təhrik etməsi 1806-cı ilin dekabrında Osmanlı dövlətinin çar Rusiyasına müharibə elan etməsi ilə

nəticələndi. Osmanlının müharibəyə başlaması Qacar qoşunlarının Cənubi Qafqaza yeni hücumlara ruhlandırdı [Qarayev, 2016: 176].

Osmanlı dövləti və Rusiya arasında müharibə (1806-1812-ci illər) başlandıqdan sonra rus komandanlığının hərbi qüvvələrinin bir hissəsinin Osmanlı cəbhəsinə göndərməsindən istifadə edən Fətəli şah Naxçıvanı ələ keçirmək üçün şahzadə Abbas Mirzəyə tapşırıq verdi. Bu dəfə də Naxçıvan xanı Qacar qoşunlarını qalaya buraxmadı. Qala müdafiəçilərinin ciddi müqaviməti qarşısında nəticə əldə edə bilməyən şahzadə yeni plana – hiylə işlətməyə əl atdı. O, irəvanlı Hüseynqulu xana Kəlbəli xanı İrəvana çağıraraq, həbs edib Tehrana göndərməyi tapşırdı. İrəvan xanı 1807-ci il martın əvvəlində bu tapşırığı yerinə yetirdi [АКАК, 1869: 529; Нагдалиев, 2006: 41]. Kəlbəli xan tutulduqdan sonra Abbas Mirzənin göstərişi ilə İrəvan xanı Hüseynqulu xan şəhər əhalisinin baş verənlərdən xəbərsiz olmasından istifadə edib qalanı tutdu. Xanlığın idarə edilməsi Abbasqulu xana verildi [Алиев & Алиев, 2011, s. 123]. Qeyd etmək lazımdır ki, Abbasqulu xan hələ fevralın əvvəlindən Rusiya tərəfindən hiylə ilə tutulmaq təhlükəsi hiss etdiyindən Qacarlar dövlətinə sığınmışdı [АКАК, 1869: 266].

1807-ci ilin dekabrına qədər Kəlbəli xan ailəsi ilə birlikdə İrəvanda saxlanıldı, sonra isə Abbas Mirzənin yanına, Təbrizə göndərildi. Bütün baş verənlərə baxmayaraq Abbas Mirzə gözlənilmədən Kəlbəli xanı həbsdən azad etdi və Naxçıvana qayıtmasına icazə verdi. Şahzadə göstərdiyi bu alicənablığının əvəzində xanın sədaqətlə xidmət edəcəyinə ümid edirdi [Нагдалиев, 2006, s. 41-42]. Lakin çox keçmədən o, 1808-ci ilin martında Naxçıvan qalasında öz dəstəsindən Vəli-Məhəmməd xan Bəlluclunun rəhbərliyi altında 200 hərbiçi yerləşdirməklə bağlı əmr verdi. Bu zaman şahzadə əlavə olaraq qalanın təmirinə başlamağı və orada sursat və ərzaq ehtiyatı yaratmağı planlaşdırırdı [Передняя Азия..., 1936: 35-40; Нагдалиев, 2006: 41-42]. İrəvan və Naxçıvan xanlıqlarını işğal etmək üçün ruslar tərəfindən ediləcək hücumun qarşısını almaq məqsədilə şahzadə bu hazırlıqları etməyə tələsirdi.

Həmin vaxt Kəlbəli xanın üzərinə xanlığın hakimi və onun rəhbərliyi ilə kəngərlilərin sərhədləri qoruması öhdəliyi qoyulmuşdu. Bütün bunlara baxmayaraq xanlığın ruslarla əlaqələri davam edirdi. Elə bu səbəbdən də Abbas Mirzənin göndərdiyi Qacar hərbi dəstəsi Naxçıvana daxil olan kimi, Kəlbəli xanı həbs etdi. Aprelin əvvəlində o, bütün ailə üzvləri ilə birlikdə Tehrana göndərildi [АКАК, 1869: 564-565; Нагдалиев, 2006: 42].

Yalnız Kəlbəli xanın oğullarından biri olan Şeyxəli bəy bir neçə tərəfdarı ilə birlikdə Qarbağa gedə bildi və orada rus qoşunlarının hərbi komandanlığı tərəfindən onun Rusiya tərəfinə keçməklə bağlı müraciəti qəbul edildi. İ.V.Qudoviçin Mehdiqulu xana Qarabağ xanlığında Şeyxəli bəyin adamları ilə birlikdə məskunlaşması ilə bağlı verdiyi tapşırıq yerinə yetirildi [АКАК, 1869: 267-268]. Kəlbəli xanın həbs edilməsindən sonra Qacarlar dövləti yenidən Abbasqulu xanı Naxçıvan xanı təyin etdi.

1807-ci ilin avqustunda Rusiya-Osmanlı müharibəsində atəşkəs əldə edildikdən sonra Rusiya yenidən Qacarlarla müharibəni davam etdirmək üçün hazırlıqlara başladı. Naxçıvan və İrəvan xanlıqlarını diplomatik yolla ələ keçirmək alınmadığı üçün rus komandanlığı yeni işğal kompaniyasına başlamaq məqsədilə hələ 1808-ci ilin əvvəllərində hazırlıqlar həyata keçirməyə başlamışdı [Umudlu, 2004: 89]. Aradakı atəşkəs rus qoşunlarına hücum əməliyyatları üçün yeni istiqamətlərin müəyyənləşdirilməsinə kömək etmiş oldu.

1808-ci il sentyabrında İ.V.Qudoviçin rəhbərliyi ilə 240 nəfər zabit və 7 min 506 nəfər əsgərdən ibarət rus qoşunları İrəvan xanlığına daxil oldular. Sentyabrın 29-da Əştərək kəndində irəvanlılarla rus hərbi qüvvələrinin ön dəstəsi arasında baş vermiş döyüşdə Hüseynqulu xan məğlub olaraq geri çəkildi. Rus hərbi qüvvələri oktyabrın 3-də Zəngi çayını keçərək İrəvan qalasını mühasirəyə aldılar [Дубровин, 1887: 209; АКАК, 1869: 241; Qarayev, 2016: 177-179]. Oktyabrın 9-dan qalaya atəş açılmağa başlandı. Bu vaxt Qarabağdan Naxçıvan istiqamətinə general-mayor P.F.Nebolsinin dəstəsi (78 zabit, 3.052 əsgər və doqquz top [Дубровин, 1887: 215]) göndərildi. Bu qoşuna Şəki hakimi Cəfərqulu xanın dəstəsi də qoşulmuşdu [АКАК, 1869: 240]. Rusları dağ yolları ilə Şeyxəli bəy Kən-

gərli aparırdı [АКАК, 1869: 267-268; Нагдалиев, 2006: 43]. Döyüşdən əvvəl onun bələdçilik etməsi rus qoşunlarının işinə çox yaramış oldu.

Bu zaman Abbas Mirzə 12 top, 60 falkoneti olan 3 min nəfərlik piyada və 12 min nəfərlik süvari qoşunla Naxçıvana doğru hərəkət etdi. 1808-ci ilin oktyabrın 28-də Naxçıvandan 18 verst aralıda Qarababa kəndi yaxınlığında polkovniklər D.Lisaneviç və P.Kotlyarevskinin başçılığı altında rus qoşununun ön dəstəsi ilə Abbas Mirzənin hərbi qüvvələri arasında baş vermiş döyüşdə Qacar qoşunları məğlub oldu. Şeyxəli bəy bu döyüşdə çox igidliklə vuruşdu. Qacar qoşunları Naxçıvana doğru geri çəkildi. Onları təqib edən P.F.Nebolsin, noyabrın 1-də şəhərə yaxınlaşdı və Şeyxəli bəyin köməyi ilə həmin gün şəhəri ələ keçirdi [Дубровин, 1887: 215; Qarayev, 2016: 183]. Bununla ruslar döyüşlərdə Qacar qoşunları məğlub olduqda geri çəkildikləri hərbi-strateji əhəmiyyətə malik Naxçıvan bölgəsini qısa müddətə olsa da ələ keçirmiş oldular.

Naxçıvan xanlığı işğal edildikdən sonra yerli əhali rus qoşunlarına qarşı gərginlik yaratmadılar, əksinə öz yaşayış yerlərini tərk edənlər geri qayıtmağa başladılar. Yerli əhalinin rus qoşunlarına qarşı bu münasibəti onların Şeyxəli bəyə olan güvən hissindən yaranmışdı. Şeyxəli bəy haqqında Peterburqa yazdığı məktubunda İ.V.Qudoviç bildirirdi ki, onun çalışqanlığı və Naxçıvan əhalisi üzərindəki təsiri sayəsində P.F.Nebolsinin Naxçıvan istiqamətində hücumu boyunca rus qoşunları ərzaq və bütün lazımi vasitələrlə təmin edilmişdir [Дубровин, 1887: 216; АКАК, 1869: 267-268].

Naxçıvanın ələ keçirilməsindən sonra İ.V.Qudoviç əhali arasında onun müraciətinin yayılması ilə bağlı əmr verdi. 06 noyabr 1808-ci il tarixli bu müraciətində rus qoşunlarının baş komandanı bölgə əhalisini öz evlərinə dönməyə, Rusiya İmperiyasının güclü himayəsi altında yerləşməyə çağırırdı. Onların könüllü qayıdışları ilə əvvəlki hüquqlarının, üstünlüklərinin və mülkiyyətlərinin təmin olunacağını bildirirdi. İnsanların həmişə ali Rusiya taxtına sadiq qalmalarını, Rusiyanın düşmənləri ilə hər hansı bir əlaqəni kəsmələrini, rus qoşunlarını ərzaq və digər bütün lazım olanlarla təmin etmələrini tələb edirdi. Qeyd edirdi ki, yerli əhali tərəfindən qoşunlara veriləcək təminatın həmişə uyğun və ədalətli qiyməti ödəniləcəkdir [АКАК, 1869: 267]. Bu müraciətində baş komandan əsasən yerli əhalidən güclü çar Rusiyasına sadiq qalmalarını və Qacarlar dövləti ilə bütün əlaqələri kəsmələrini tələb etməklə gələcək hakimiyyətlərinin təməlini qoymağa çalışırdı.

Lakin bu zaman İrəvan qalası ətrafında rus qoşunlarının işğal planı heç də uğurla davam etmirdi. Ruslar tərəfindən qalanın suyu kəsilsə də, müdafiəçilər artilleriya və tüfəng atəşləri altında Zəngi çayından su gətirməyə məcbur qalsalar da, qala müdafiəçiləri müqavimət göstərməkdə davam edirdilər [Потто, 1901: 300]. Rusiya topları iki qülləni dağıtdı və onların üzərindəki silahları susdurdu, lakin komendant Həsən xan təslim olmaq təkliflərindən qətiyyətlə imtina etdi. Noyabrın 17-də səhər saat 5-də 4645 nəfərlik rus qoşununun qalaya hücumu başladı. Qoşunun güclü itki (17 zabit və 269 əsgər məhv edilmiş, 64 zabit və 829 əsgər isə yaralanmışdı) verdiyini görən qraf İ.V.Qudoviç hücumu dayandırdı. Hətta P.Butkov bu hücum zamanı rus qoşunlarının min nəfərə yaxın itki verdiyini yazmışdı [Бутков, 1869: 390; Qarayev, 2016: 185; Нагдалиев, 2006: 44-45]. Bu hücum da uğursuzluqla nəticələndi.

Noyabrın 30-da rus qoşunu İrəvan qalasının mühasirəsini dayandırdı və Tiflisə doğru geri çəkildi. Bu zaman İ.V.Qudoviç general-mayor P.F.Nebolsinə Naxçıvandan Gəncəyə geri çəkilmək haqqında əmr verdi. Naxçıvanda möhkəmlənmiş rus qoşunu da dekabrın 1-də buranı tərk etdi. Onların ardınca şəhərə Abbasqulu xan öz süvariləri ilə daxil oldu. O, rusları təqib etmək üçün oğlunu 3 min nəfərlik hərbi qüvvə ilə göndərdi. Onlar bir neçə gün ərzində P.F.Nebolsinin hərbi qüvvələrinə ardıcıl hücumlar etdilər. Dekabrın 4-də Abbas Mirzənin çoxsaylı qoşunu geri çəkilən rus hərbi qüvvələrinə hücum etdi, onlar arasında Qarababa kəndi yaxınlığında ağır döyüş baş verdi. Əks-hücumla Qacar qoşunlarını geri çəkilməyə məcbur edən ruslar yollarına davam edərək dekabrın 8-də Şuşaya çatdılar [Потто, 1901: 305-306; Нагдалиев, 2006: 45]. Rus qoşunları bölgəni tərk edərkən İ.V.Qudoviç general-mayor P.F.Nebolsinə tapşırmışdı ki, Naxçıvandan çıxarkən köçmək istəyən sakinləri, xüsusilə,

Şeyxəli bəyi də özləri ilə götürsünlər. Ona göstərdiyi xidmətlərə görə mükafatlandırılacağını, geri çəkilən sakinlərə isə rusların yazda daha çox saylı qoşunla gələcəklərini bildirsinlər [АКАК, 1869: 251].

Beləliklə, rus qoşunlarının 1808-ci il kampaniyası, yəni Naxçıvan və İrəvan xanlıqları üzərinə ikinci hücumları da uğursuzluqla nəticələndi. Bu uğursuzluqlardan məyus olan Rusiya qoşunlarının Qafqaz üzrə baş komandanı İ.V.Qudoviç çar hökumətindən istefa istədi. Vəzifəsini tərk etməzdən bir neçə gün əvvəl o, Şeyxəli bəyin xidmətləri barədə imperatora məlumat verdi [Нагдалиев, 2006: 46]. Çar I Aleksandr 1809-cu il 05 aprel tarixli cavab məktubu ilə Şeyxəli bəyə polkovnik rütbəsi və gümüş pulla maaş verilməsini təsdiq etmişdir [Алиев & Алиев, 2011: 128]. Bununla çar Rusiyası işğal etdiyi bölgələrdə özünə yerli hərbi tərəfdaşlar qazanmağı və lazım olanda onlardan istifadə etməyi həyata keçirirdi.

Beləliklə, XIX əsrin ilk onilliyində Rusiya imperiyasının Azərbaycan xanlıqlarını tabe etmək strategiyası həm Kürəkçay kimi hüquqi-diplomatik sazişlər, həm də birbaşa hərbi müdaxilələr vasitəsilə həyata keçirilmişdir. Mənbələrin təhlili göstərir ki, strateji əhəmiyyətli İrəvan və Naxçıvan xanlıqlarını ələ keçirmək üçün 1804-1808-ci illərdə təşkil edilən hərbi kompaniyalar, yerli hakimlərin müqaviməti, Qacar ordusunun müdaxiləsi və rus qoşunlarının təchizat çətinlikləri səbəbindən taktiki uğursuzluqla və geri çəkilmə ilə nəticələnmişdir. Bu dövrdə Kəlbəli xan kimi yerli hakimiyyət nümayəndələrinin Rusiya və Qacarlar dövləti arasında apardığı balanslı siyasət onların işinə mane olmuş, habelə xanlıqlar daxilindəki hakimiyyət çəkişmələri regionun siyasi mənzərəsini daha da mürəkkəbləşdirmişdir. Nəticə etibarilə, çar Rusiyası Şimali Azərbaycanın bir çox xanlıqlarını (Gəncə, Qarabağ, Şəki, Şirvan, Dərbənd, Bakı, Quba) tabe etməyə nail olsa da, 1808-ci ilə qədərki hərbi əməliyyatlar İrəvan və Naxçıvanın tam ilhaqı üçün kifayət etməmiş, bu bölgələr uğrunda mübarizə Birinci Rusiya-Qacar müharibəsinin ən gərgin və həlledici cəbhələrindən biri olaraq qalmışdır.

## ƏDƏBİYYAT


Hüseynov, Y. (2012). *Qarabağ tarixi mənbələrdə*. Şuşa.

*Qarabağnamələr* (A.Fərzəliyev, N.Axundov, Tərt.). (2020). Qanun.

Qarayev, E.T. (2016). *Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında)*. Mütərcim.

Mahmudov, M., Şükürov, K. (2009). *Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. 1639-1828* (4 cilddə, 1-ci cild). AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu.

Mustafazadə, T. (2005). *Quba xanlığı*. Bakı. Elm.

Süleymanov, M. (2014 a). *Gülüstan müqaviləsi* (1-ci hissə). Elm və təhsil.

Süleymanov, M. (2014 b). *Gülüstan müqaviləsi* (2-ci hissə). Elm və təhsil.

Umudlu, V. (2004). *Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)*. Elm.

*АКАК* (2-й том). (1868). Типография главного управления наместника Кавказского.

*АКАК* (3-й том). (1869). Типографии главного управления наместника Кавказского.

Алиев, Ф. & Алиев, М. (2011). *Нахчыванское ханство (1747-1828)*. Кавказ.

Алиев, М.М. (1986). *Нахичеванское ханство и его присоединение к России* [Автореф. дис. … канд. ист. наук]. Институт истории НАНА.

Бутков, П.Г. (1869). *Материалы для новой истории Кавказа с 1722 по 1803 год*. Типография Императорской АН.

Дубровин, Н.Ф. (1866 a). *Закавказье 1803-1806 года*. Типография департамента уделовъ.

Дубровин, Н.Ф. (1866 b). *История войны и владычества русских на Кавказе*. Типография И.Н.Скороходова.

Дубровин, Н.Ф. (1887). *История войны и владычества русских на Кавказе* (5-й том). Издания у В.А.Березовского.

Нагдалиев, Ф. (2006). *Ханы Нахичеванские в Российской Империи*. Новый Аргумент.

Марр, Ю.Н. (Ред.). (1936). Передняя Азия в документах (серия памяти Ю.Н. Марра). (1-я книга: Нахичеванские рукописные документы XVII-XIX вв.). Изд-во Грузинского филиала Академии Наук СССР.

Потто, В. (1901). *Утверждение русского владычества на Кавказе* (1-й том). Типографии Я.И.Либермана.

Присоединение восточной Армении к России [Сборник документов] (1-й том: 1801-813). (1972). Изд-во Академии наук Армянской ССР. https://www.vostlit.info/Texts/Dokumenty/Kavkaz/XIX/18001820/Prisoed_vost_armenii_I/index.htm

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 25.05.2026**
**Son variant 10.06.2026**